AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

**"AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI" ELMİ MƏRKƏZİ**

AZ-1143, Bakı şəh.,
Yasamal rayonu
H.Cavid prospekti,111

Tel.: (+994 12) 538-58-81;
Faks: (+994 12) 538-47-67
E-mail: tnagiev@azeurotel.com

"19" iyun 2017-ci il

№ 54-96

**"SINAM" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru cənab Əbülfət Rəhmanova**

**Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi**

**"SERP" proqram təminatına dair**

RƏY MƏKTUBU

Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin layihəsi çərçivəsində yaradılmış SERP proqramından 2016-cı ildən yararlanmağa başlamışdır. Bu proqramdan və xidmətinizdən istifadə edərək təşkilatımızın bütün maliyyə və kadr işlərini aparılması proqramlaşdırılmışdır.

Sistemin kadrlar bölməsində işlərin aparılması daha da tezləşmiş və burada edilən dəyişikliklər mühasibat bölməsinə baza olaraq ötürülür, bu da işçilərin əmək haqqı, məzuniyyət, axırıncı haqq-hesab, xəstəlik vərəqələri və s. əməliyyatlar üzrə hesablamaların avtomatik əldə edilməsinə şərait yaradır. Bazaya yığılan məlumatlar əsasında Vergilər Nazirliyinə, Dövlət Sosial Müdafiə Fonduna, Statistika Komitəsinə təqdim olunan aylıq, rüblük, illik hesabatların verilməsini təmin edir.

SERP proqramının "Bank" bölməsində ödəniş tapşırıqlarının yaradılması ilə QÖS, MAS və digər xəzinədarlıq sənədləri avtomatik olaraq yaradılır, bu da vaxt itkisinin qarşısını almışdır.

Əsas vəsaitlər və mal-material uçotunda bütün əməliyyatlar üzrə uçotun aparılması və lazımi hesabatların əldə edilməsi sistem vasitəsi ilə rahat və dəqiq aparılır. Həmçinin ilin sonunda aparılan inventarizasiya və əsas vəsaitlərin amortizasiyası (köhnəlmə) avtomatik şəkildə və tez bir zamanda hesablanır. Bu məlumatların hesabatlarını dəqiq və düzgün cədvəl şəklində ixrac edir.

Sistem Azərbaycan Respublikasının Əmək və Vergi Məcəlləsinə, Milli Hesablar Planına, Milli Mühasibat Standartlarının tələbinə uyğun qurulmuşdur. Hesablar planında və qanunvericilikdəki dəyişikliklərin və ya yeniliklərin sistemdə operativ şəkildə əks etdirilməsi də sistemin üstün cəhətləri olaraq qiymətləndirilir.

İşini SERP sistemində təşkil və idarə edən təşkilat olaraq müəssisəmizin bu sistemdən istifadəsinin daimi olmağını istərdik.

**Baş mühasib :** **Əliyeva İ.A**